# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ FƏALİYYƏT GÖSTƏRƏN KOB SUBYEKTLƏRİNİN İNKİŞAF EHTİYACLARININ VƏ ÇƏTİNLİKLƏRİNİN DƏRİN TƏHLİLİ

Sorğu nəticələri

2025

# SORĞU HAQQINDA ÜMUMİ MƏLUMAT

**KOBİA**

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

Sorğu KOBİA-nın sifarişi əsasında «GMB Klaster Konsaltinq» MMC şirkəti tərəfindən keçirilmişdir.

# SORĞU HAQQINDA ÜMUMİ MƏLUMAT

### SORĞUNUN MƏQSƏDİ

Sorğu işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən KOB subyektlərinin inkişaf ehtiyaclarının və çətinliklərinin dərin təhlili və təkliflərin formalaşdırılması məqsədi ilə keçirilmişdir.

### SORĞUNUN HƏDƏFİ

Sorğunun hədəfi mikro, kiçik və orta sahibkarlıq müəssisələridir.

### KEÇİRİLMƏ METODOLOGİYASI

Sorğuda anket metodu tətbiq edilmişdir.

### RESPONDENTLƏRİN ÜMUMI SAYI

Sorğuda 51 KOB subyekti iştirak etmişdir.

### SORĞUNUN ƏHATƏ ETDİYİ DÖVR

27.10.2025 – 16.11.2025 dövrlərini əhatə edir.

# Ümumi İnformasiya

Sorğunun nəticələri göstərir ki, işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərmək istəyən KOB subyektlərinin əsas problemləri üç əsas istiqamətdə cəmlənir:

- **infrastruktur,**
- **maliyyə əlçatanlığı**
- **insan resursları/məskunlaşma**

# Xülasə

## Əsas çətiniklər

**1. İnfrastruktur çatışmazlığı**

Respondentlərin böyük əksəriyyəti **yollar, elektrik, su, qaz, internet, təhlükəsizlik** kimi infrastruktur komponentlərini "tam və stabil şəkildə bərpa olunmamış" kimi qiymətləndirib. Bu, statistik olaraq bütün qrafiklərdə **ən yüksək paya malik problemdir.**

✓ KOB-ların fəaliyyətə başlaması, genişlənməsi və məhsuldarlığı üçün birinci dərəcəli maneə məhz infrastrukturdur.

**2. Satış bazarının olmaması və məskunlaşmanın gecikməsi**

Statistik nəticələr göstərir ki, respondentlərin böyük hissəsi "**əhalinin hələ tam qayıtmaması**" səbəbilə:

- **satış həcmlərinin aşağı olduğunu,**
- **bazarın formalaşmadığını,**
- **işçi tapmağın çətinləşdiyini bildirir.**

✓ Bu, xüsusilə **xidmət, ticarət və qida sektorunda** yüksək səviyyədə təkrarlanır.

# Xülasə

## Əsas çətiniklər

**3. Kredit əldə etməkdə çətinliklər:**

- **bankların sərt şərtləri,**
- **yüksək təminat tələbləri,**
- **uzunmüddətli və aşağı faizli kreditlərin olmaması,**
- **bankların risk qiymətləndirməsində sərt yanaşma.**

✓ Bu statistika göstərir ki, **KOB-ların ən böyük maliyyə baryeri kredit xəttinə çıxışdır.**

**4. İşçi qüvvəsi çatışmazlığı**

Respondentlərin yüksək faizi bildirir ki:

- **regionda yaşayış olmadığından işçi tapmaq çətindir,**
- **maaş tələbləri yüksəkdir,**
- **xüsusi bacarıqlı kadr tapmaq mümkün deyil.**

✓ Əmək resurslarının strukturunu göstərən qrafikdə "**işçi tapmaqda çətinlik**" cavabı dominantdır.

# Xülasə

**5. Xammal, avadanlıq və texnologiya çatışmazlığı**

- Xammal təchizatı, avadanlıq və texniki infrastruktur mövzusundakı qrafiklərdə respondentlərin ciddi qismi:
- logistika xərclərinin yüksək olduğunu,
- yerli tədarükün zəif olduğunu,
- avadanlıq gətirməyin baha başa gəldiyini qeyd edir

## Əsas imkanlar

**1. Regionda genişlənmə potensialı yüksəkdir:**

- Respondentlərin çoxu **növbəti illərdə genişləndirmə niyyətini** ifadə edib. Bu niyyət xüsusilə:
- aqrar sektor,
- xidmət sektoru,
- ərzaq istehsalı üzrə daha sürətli artım potensialı yaradır.

**2. İxrac meyili olan KOB-ların sayı artır**

- İxrac istiqamətləri və ixraca maraq qrafiklərində müsbət dinamika var. Əgər infrastruktur və lojistika formalaşsa, bu bölgədə **ixracyönümlü istehsal klasterləri** yaranması üçün güclü baza mövcuddur.

**3. Dövlət dəstəyinə yüksək tələb, siyasət formalaşdırmaq üçün imkan**

- Respondentlər iqtisadi zonalar, vergi güzəştləri, torpaq təminatı kimi alətləri ən çox istənilən mexanizm kimi göstərib. Bu, dövlət üçün **doğrudan hədəfli dəstək paketləri** formalaşdırmaq imkanı yaradır.

# Əsas imkanlar

**4. KOB dostu, One-Stop xidmətlərinə yüksək ehtiyac**

- “KOB Dostu xidmətindən istifadə” qrafikinə əsasən bu xidmətə maraq yüksəkdir. Bu, administrativ yükü azaltmaq üçün əla fürsətdir.

**İnfrastruktur ən kritik məsələdir.**

Respondentlərin böyük hissəsi yollar, elektrik, su, qaz, istilik sistemi, internet və təhlükəsizlik təminatının tam və stabil şəkildə bərpa edilmədiyini əsas çətinlik kimi qeyd edib. İnfrastrukturun gecikməsi həm fəaliyyət xərclərini artırır, həm də biznesin davamlılığını riskə salır.

**Maliyyə dəstəyi və kreditlər əlçatan deyil.**

KOB-lar aşağı faizli və uzunmüddətli kreditlərin olmamasını, bankların sərt şərtlərini, təminat tələblərini və kredit xəttinə çıxışın çətin olduğunu xüsusi problem kimi vurğulayıb.

Bir çox sahibkar fəaliyyətini genişləndirmək və ya başlamaq üçün “aşağı faizli kredit xətti” və “dövlət zəmanəti” tələb edir.

**Məskunlaşma gec gedir – satış və işçi çatışmazlığı yaradır.**

Əhali hələ tam qayıtmadığı üçün satışlar aşağıdır, bazar formalaşmayıb və işçi tapmaq çətindir. Sahibkarlar “Böyük Qayıdış”ın sürətləndirilməsinin biznes fəaliyyətinin açarı olduğunu qeyd edir.

# STATİSTİK NƏTİCƏLƏR

# Müəssisənin fəaliyyət göstərdiyi iqtisadi rayon



| | Bakı | Qarabağ | Şərqi Zəngəzur | Şəki-Zaqatala | Mərkəzi Aran | Quba-Xaçmaz |
|---|---|---|---|---|---|---|
| Say | 4 | 38 | 5 | 1 | 2 | 1 |
| Faiz | 7.8 | 74.5 | 9.8 | 2 | 3.9 | 2 |

# Hüquqi statusu



# Fəaliyyət sahələri



| | Kənd təsərrüffatı və aqrar xidmətlər | Qida və emal sənayesi | Tikinti və infrastruktur | Turizm, istirahət və xidmətlər | Ticarət və logistika | Təhsil və sosial xidmətlər | İT və innovasiya | Digər |
|---|---|---|---|---|---|---|---|---|
| Say | 6 | 5 | 11 | 2 | 9 | 1 | 1 | 16 |
| Faiz | 11.8 | 9.8 | 21.6 | 3.9 | 17.6 | 2 | 2 | 32 |

# Müəssisələrin fəaliyyət müddətləri



| | 1 ildən az | 1-5 il | 6-10 il | 10 ildən çox |
|---|---|---|---|---|
| Say | 15 | 23 | 6 | 7 |
| Faiz | 29.4 | 45.1 | 11.8 | 13.7 |

# Müəssisələrdə çalışan işçilərin sayı



| | 1-10 arası | 11-50 arası | 51-250 arası | |
|---|---|---|---|---|
| Say | 29 | 13 | 9 | |
| Faiz | 56.9 | 25.5 | 17.6 | |

Say Faiz

# Sorğuda iştirak edən

| | **Say** | **Faiz (%)** |
|---|---|---|
| Sahibkar | 31 | 60.8 |
| Direktor/rəis/müdür | 14 | 27.5 |
| Şöbə (departament) müdiri | 6 | 11.8 |

# Sahibkarlıq fəaliyyətində idarəetmə təcrübəsi



| | 1 ildən az | 1-5 il | 6-10 il | 11 il və daha çox |
|---|---|---|---|---|
| Say | 2 | 9 | 15 | 25 |
| Faiz | 3.9 | 4.4 | 29.4 | 49 |

Say Faiz

# Cins



# Təhsil



7.8
21.6
7.8
54.9
7.8
4
11
4
28
4
Ümumi orta təhsil (9 illik)
Tam orta təhsil (11 illik)
Peşə (kollec) təhsil
Bakalavr
Magistratura və ya Doktorantura
Faiz
Say

# Regionda fəaliyyət məqsədi

| | Say | Faiz (%) |
|---|---|---|
| Yeni istehsal və dəyər zənciri formalaşdırmaq | 14 | 27.5 |
| Mövcud biznesi bərpa etmək | 19 | 37.3 |
| Yerli icmaya inteqrasiya yaratmaq | 9 | 17.6 |
| İxrac yönümlü fəaliyyət qurmaq | 6 | 11.8 |
| Dövlət proqramı çərçivəsində investisiya layihəsi | 5 | 9.8 |
| Tikinti | | |
| | | |

# Hazırkı fəaliyyət mərhələləri






# İnfrastruktur təminatının qiymətləndirilməsi



| | Elektrik enerjisi təminatı | Su təchizatı | Yol və nəqliyyat şəbəkəsi | İnternet və rabitə | Təhlükəsizlik və logistika |
|---|---|---|---|---|---|
| 1 bal | 2 | 4 | 5 | 2 | 2 |
| 2 bal | 7 | 6 | 5 | 7 | 3 |
| 3 bal | 7 | 10 | 11 | 13 | 11 |
| 4 bal | 11 | 11 | 15 | 10 | 15 |
| 5 bal | 24 | 20 | 15 | 19 | |

# Ən ciddi infrastruktur problemləri

| | Say | Faiz (%) |
|---|---|---|
| Yol və nəqliyyat çatışmazlığı | 18 | 35.3 |
| Elektrik enerjisinin dayanıqsızlığı | 10 | 19.6 |
| Su təchizatı və kanalizasiya sistemləri | 10 | 19.6 |
| Rəqəmsal infrastruktur (internet və rabitə) | 11 | 21.6 |
| Tullantıların idarə olunmaması | 8 | 15.7 |
| Sosial infrastruktur (təhsil, səhiyyə, yaşayış) | 10 | 19.6 |
| Çətinlik yoxdur | 13 | 25.5 |
| Digər | 2 | 4 |

Bu suala  respondentlər bir neçə cavab verə bilib

# Xammal və materialların təmin edilməsi






# Lazımi avadanlıq və texnologiyalara çıxış:






# Əsas maliyyə mənbələri

| | | |
|---|---|---|
| Öz vəsaitim | 82.4 | 42 |
| Bank krediti | 33.3 | 17 |
| Dövlət dəstəyi (subsidiya,güzəştli kredit və s.) | 15.7 | 8 |
| Qrant və donor maliyyəsi | 2 | 1 |
| Xarici investisiya | 0 | 0 |

Bu suala respondentlər bir neçə cavab verə bilib

Faiz — Say

# Kredit əldə etməkdə qarşılaşılan əsas çətinliklər:

| | Faiz | Say |
|---|---|---|
| Girov və təminat problemi | 43.1 | 22 |
| Faiz dərəcələrinin yüksəkliyi | 60.8 | 31 |
| İnformasiya və məsləhət çatışmazlığı | 5.9 | 3 |
| Maliyyə şəffaflığının və hesabat sisteminin zəifliyi | 3.9 | 2 |
| Kredit tarixçəsinin olmaması və ya zəif olması | 17.6 | 9 |
| Layihələrin riskli qiymətləndirilməsi | 3.9 | 2 |
| Regionlar üzrə fərqlər | 9.8 | 5 |
| Digər (Respondentlər tərəfindən kredit götürülmədiyi bildirilib) | 4 | 2 |

Bu suala respondentlər bir neçə cavab verə bilib

# “KOB dostu” xidmətindən istifadə






# İşçi qüvvəsini tapmaqda çətinlik






# Əgər varsa, əsas səbəblər

| | Say | Faiz |
|---|---|---|
| Yerli əhalinin azlığı | 33 | 64.7 |
| Peşəkar kadr çatışmazlığı | 18 | 35.3 |
| Yaşayış şəraiti və Nəqliyyat problemi | 18 | 35.3 |
| Təlim və ixtisas proqramlarının olmaması | 1 | 2 |
| Maaş və sosial paketlərdə rəqabətsizlik | 2 | 3.9 |
| Brend tanınmamazlığı | 1 | 2 |
| Karyera inkişafı imkanlarının qeyri-müəyyənliyi | 5 | 9.8 |
| Çətinlik yoxdur | 1 | 2 |

Bu suala respondentlər bir neçə cavab verə bilib

Say Faiz

# İşçilərin əsasən cəlb olunduğu kateqoriyalar






# Əmək Resurslarının Strukturu (faiz nisbətilə)



| | Yerli əhali | Digər regionlar | Xarici | |
|---|---|---|---|---|
| 10 | 8 | 4 | 9 | |
| 20 | 6 | 4 | 1 | |
| 30 | 5 | 7 | 1 | |
| 40 | 4 | 1 | | |
| 50 | 6 | 5 | | |
| 60 | 1 | 2 | | |
| 70 | 3 | 3 | | |
| 80 | 2 | 3 | | |
| 90 | 3 | 3 | | |
| 100 | 10 | 1 | | |

# Əmək resursları baxımından ən ciddi problemlər

| | Say | Faiz (%) |
|---|---|---|
| İxtisaslı işçi tapmaq çətindir | 20 | 39.2 |
| Əmək haqqı gözləntiləri çox yüksəkdir | 12 | 23.5 |
| Regionda yaşayış şəraiti işçiləri cəlb etmir | 12 | 23.5 |
| Yerli əhali hələ tam qayıtmayıb | 36 | 70.6 |
| Əmək bazarı ilə bağlı məlumatçatışmazlığı | 2 | 3.9 |

Bu suala respondentlər bir neçə cavab verə bilib

# Təlim və kadr hazırlığına ehtiyac olan sahələr

| | Say | Faiz (%) |
|---|---|---|
| Texniki bacarıqlar | 29 | 56.9 |
| Biznes idarəçiliyi | 4 | 7.8 |
| Maliyyə və mühasibatlıq | 7 | 13.7 |
| Marketinq və satış | 15 | 29.4 |
| İxrac prosedurları | 3 | 5.9 |
| Digər | 4 | 7.8 |

Bu suala  respondentlər bir neçə cavab verə bilib

# Məhsul və xidmətlərin harada satılması






# İxrac edilən əsas istiqamətlər

| | Say | Faiz (%) |
|---|---|---|
| Türkiyə | 7 | 13.7 |
| Rusiya | 4 | 7.8 |
| Gürcüstan | 3 | 5.9 |
| Mərkəzi Asiya | 2 | 3.9 |
| Yaxın şərq | 2 | 3.9 |
| Digər | 41 | 80 |

Bu suala respondentlər bir neçə cavab verə bilib

# İxracda qarşılaşılan əsas çətinliklər

| | Say | Faiz (%) |
|---|---|---|
| Bazar araşdırması və hədəf bazarın seçimi | 24 | 47.1 |
| Sertifikat və keyfiyyət tələbləri | 2 | 3.9 |
| Logistika və daşınma | 8 | 15.7 |
| Ticarət tərəfdaşlarının azlığı | 12 | 23.5 |
| İxrac təşviqi mexanizmlərinin məhdudluğu | 5 | 9.8 |
| Marketinq və brend tanınması | 6 | 11.8 |

Bu suala  respondentlər bir neçə cavab verə bilib

# Regionda biznes mühitinin qiymətləndirilməsi






# Hüquqi və tənzimləyici mühitin qiymətləndirilməsi






# Biznes fəaliyyəti üçün torpaq və məkan əlçatanlığının qiymətləndirilməsi






# Dövlət-özəl sektor əməkdaşlığının daha çox inkişaf etməli olduğu sahələr

| | Say | Faiz (%) |
|---|---|---|
| İnfrastruktur | 23 | 45.1 |
| Təhsil və kadr hazırlığı | 20 | 39.2 |
| İnnovasiya və texnologiya | 13 | 25.5 |
| Aqrar sektor | 13 | 25.5 |
| Turizm və xidmətlər | 13 | 25.5 |
| Digər | 1 | 2 |

Bu suala  respondentlər bir neçə cavab verə bilib

# Şirkətilərin ekoloji standartlara riayət edilməsi






# Müəssisələrdə innovativ texnologiyalardan (rəqəmsal alətlər, avtomatlaşdırma, E-ticarət və s.) istifadə səviyyəsinin qiymətləndirilməsi






# Respondentlərin yerli icmanın sosial rifahına təsirlərinin qiymətləndirilməsi






# Respondentlərin növbəti 3 il üçün inkişaf prioritetləri

| | Say | Faiz (%) |
|---|---|---|
| Yeni istehsal və texnologiya tətbiqi | 15 | 29.4 |
| Yeni bazarlara çıxış | 21 | 41.2 |
| Əmək məhsuldarlığının artırılması | 25 | 49 |
| İxrac payının yüksəldilməsi | 5 | 9.8 |
| Rəqəmsallaşma və innovasiya | 10 | 19.6 |

Bu suala respondentlər bir neçə cavab verə bilib

# Respondentlərin fəaliyyətlərini genişləndirmək üçün gözləntiləri

| | Say | Faiz (%) |
|---|---|---|
| Aşağı faizli kredit | 35 | 68.6 |
| İnfrastruktur subsidiyası | 17 | 33.3 |
| Konsaltinq və təlim xidmətləri | 3 | 5.9 |
| İxrac təşviqi | 7 | 13.7 |
| Startap və innovasiya qrantı | 2 | 3.9 |
| Hüquqi və vergi məsləhət xidməti | 5 | 9.8 |
| Digər | 3 | 5.9 |

Bu suala respondentlər bir neçə cavab verə bilib

# Regionda fəaliyyət üçün təhlükəsizlik, mülkiyyət hüquqlarının qorunması və investisiya mühitinin qiymətləndirilməsi






# YEKUN NƏTİCƏLƏR

Respondentlərin fikirlərinə görə, KOB-ların işğaldan azad edilmiş ərazilərdə dayanıqlı fəaliyyət göstərə bilməsi üçün **infrastrukturun tam bərpası**, **əlçatan maliyyə mexanizmlərinin yaradılması**, **ucuz və sabit icarə siyasəti**, **yerli əhalinin sürətli məskunlaşdırılması** və **dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi** strateji prioritet kimi ön plana çıxır.

**İcarə və obyektlərlə bağlı problemlər çoxdur.**

Ən çox təkrarlanan şikayətlər – icarə qiymətlərinin yüksək olması, kommunal təminatın icarəyə verən tərəfindən qarşılanmaması, investisiya qoyulmuş obyektlərin sökülməsi riski və sabitlik çatışmazlığıdır. Bu, biznesə başlamaq üçün ciddi maneə yaradır.

**Torpaq və aqrar fəaliyyət üçün şərait çatışmır.**

Xüsusilə aqrar sahədə təcrübəsi olan şəxslər torpaq sahələrinin ayrılması, su təminatı və subsidiya dəstəyinin vacibliyini vurğulayır. 10–15 hektarlıq məhsuldar torpaqların verilməsi tələbi çox təkrarlanıb.

**Xüsusi iqtisadi zonalara və dövlət dəstəyinə böyük tələbat var.**

Respondentlər xüsusi iqtisadi zonaların yaradılmasını, (məs. Cəbrayıl Biznes Parkı) vergi güzəştlərini və KOB-larla daha sıx əməkdaşlıq mexanizmlərinin qurulmasını dəstəkləyir. Böyük şirkətlərin kiçik bizneslərlə əməkdaşlıq etməməsi də ayrıca problem kimi qeyd olunub.

**Rəqəmsal ödəniş, logistika və marketinq dəstəyinə ehtiyac var.**

Rəqəmsal ödənişlər üçün texniki təminat zəifdir. Logistika bahalıdır. Marketinq və satış kanallarına çıxış məhduddur. Xüsusilə ərzaq istehsalçıları yerli mağazaların əməkdaşlıq etmədiyini bildirir.

# TƏKLİFLƏR



# İnkişaf üçün Meyillər (statistik trendlərə əsaslanır)

**1. Aqrar sektor açıq şəkildə ən yüksək maraq görən istiqamətdir**
Sahibkarların:
•torpaq istəyi,
•subsidiyaya ehtiyacın yüksək olması,
•aqrar fəaliyyət planlaşdırması
**aqrar istehsalın regionda aparıcı xətt olacağını göstərir.**

**2. Xidmət və turizm sektoru paralel şəkildə inkişaf edəcək**

Turizm xidmətləri, kənd turizmi və xidmət sektorunun digər alt sahələri satış potensialını artırır.

**3. İnnovasiya və rəqəmsal alətlərdən istifadə çox aşağıdır → inkişaf potensialı yüksəkdir**

"Rəqəmsal alətlərdən istifadə səviyyəsi" qrafikində aşağı göstəricilər müşahidə olunur.
Bu isə:
•elektron ödənişlər,
•onlayn satış,
•rəqəmsal logistika
kimi xidmətlərin qurulması üçün **böyük potensial** deməkdir.

# İnkişaf üçün Meyillər (statistik trendlərə əsaslanır)

**4. İxrac orientasiyası güclənir.** İxraca maraq göstərənlərin sayı yüksəkdir. **İnfrastruktur düzəldilsə, bölgə ixrac qovşağına çevrilə bilər**.

## Əsas Trendlər (statistik icmalın ümumi təhlili)

- **Trend 1 — İnfrastruktur həlledici faktordur**
- Sorğunun bütün bloklarında infrastruktur problemləri ən yüksək paya malikdir.

- **Trend 2 — KOB-lar genişlənmək istəyir, amma şərtlər imkan vermir**
- Növbəti 3 il üçün planları yüksək olsa da, əməli fəaliyyətə təsir edən çoxlu risk mövcuddur.

- **Trend 3 — Kredit və maliyyə siyasəti KOB-ların real ehtiyaclarına uyğun deyil**
- Bank sektorunun mexanizmləri region reallığına uyğunlaşmayıb.

- **Trend 4 — İnsan resursu çatışmazlığı məskunlaşma ilə birbaşa əlaqəlidir**
- Bu trend bütün əmək resursları qrafiklərində təkrarlanır.

- **Trend 5 — Dövlət-özəl əməkdaşlığına böyük gözlənti var**
- Xüsusi iqtisadi zona, vergi güzəştləri, icarə siyasəti mütləq yenilənməlidir.

# İnfrastruktur və kommunal təminat

**Standart icarə müqaviləsi və kommunal təminat öhdəliyi**

- Dövlət və/və ya yerli hakimiyyətlə birlikdə standart icarə (lease) şablonlarının hazırlanması, icarəyə verən tərəfin (mülkiyyət sahibi / dövlət agentliyi) obyekti təhvil verərkən minimum elektrik, su, qaz və kanalizasiya tələblərini təmin etməsi tələbi həyata keçirilə bilər.
- İcarə müqavilələrində maksimum təmir/sökülmə bildiriş müddətləri və kompensasiya mexanizmlərinin qeyd edilməsi (məsələn, investor obyektə pul yatırırsa və dövlət sökəcəksə kompensasiya qaydası)

**Elektrik, su və qaz subsidiyaları / güzəştləri**

- Azərenerji/Azərsu ilə razılaşma: ilk 3–5 il üçün tarif güzəştləri və ya subsidiyalı ilk bağlantı haqqı
- Xüsusi investisiya paketlərində "paylaşılmış enerji xətləri" və bərpa olunan enerji (günəş panelləri) layihələri üçün qrant/vergidən azadetmə təklifi edilə bilər.

**Mobil/backup enerji və sınaq-infrastruktur dəstəyi**

- Müvəqqəti dövrdə generator, günəş stansiyaları və su anbarları üçün dövlət və donor dəstəyi (leasing və ya subsidiyalı icarə) yaradıla bilər.

# İnfrastruktur və kommunal təminat

- **KOB İnfrastruktur Xəritəsi hazırlanmalıdır**
- Hər rayon üzrə **elektrik, su, qaz, yol, internet, təhlükəsizlik** səviyyəsini göstərən interaktiv xəritə.
- KOB-lar fəaliyyət planlarını bu xəritə üzrə qura bilər.

- **İnfrastruktur bərpası ilə KOB-ların planlarının sinxronlaşdırılması**
- Sorğudakı nəticələr göstərir ki, **KOB-lar genişlənməyə hazırdır**, amma şərait yoxdur.
  **Buna görə:**
- Rəqəmsal infrastruktur (fiber internet) ilk mərhələdə prioritetləşdirilməlidir.
- Sənaye və xidmət zonaları üçün “hazır obyektlər” modeli tətbiq edilməlidir.

# Torpaq siyasəti və məskunlaşma təşviqləri

**Ədalətli və şəffaf torpaq qeydiyyatı**

- Torpaq islahatları çərçivəsində azad olunmuş ərazilərdə sürətli və şəffaf torpaq reyestri (elektron) yaradılması, qayıdan ailələr üçün prioritet mexanizm olması

**İlk məskunlaşma təşviqləri**

- Qayıdan ailələr və sahibkarlar üçün birinci 3 il üçün vergi güzəştləri, kirayə/kommunal subsidiyalar, təməl dəstək paketləri (tikinti materialları, kredit faiz endirimi) tətbiq edilməsi
- Ailə əsaslı, kənd təsərrüfatı və mikro-SME layihələrinə start qrantları yaradılması

**Regionlaşdırılmış məskunlaşma planı**

- Yerli hakimiyyətlər obyektləri 1–3 illik mərhələlərə bölərək sahibkarlara əvvəlcədən məlumat (registrasiya) verilməsi; prioritet sahələr (turizm, xidmət, kənd təsərrüfatı, arıçılıq, logistik) müəyyənləşdirilməsi məqsədəuyğun olardı.

# Torpaq siyasəti və məskunlaşma təşviqləri

- **KOB-ların kreditə çıxış faizi çox aşağıdır.**
  Təkliflər:
- 70–80%-ə qədər dövlət zəmanəti
- faiz subsidiyası
- uzunmüddətli güzəşt dövrü olan kreditlər

- **“0–6 ay ödənişsiz” başlanğıc kreditləri**
- Regionda insfrastruktur yarımçıq olduğuna görə KOB-lar ilkin aylar gəlir əldə etmir.

**Bu model real ehtiyaca uyğundur**

**İcarə/obyekt + avadanlıq üçün kombinə edilmiş kredit paketləri**

Sorğuda avadanlıq çatışmazlığı geniş qeyd olunub.
Bu səbəbdən avadanlıq kreditləri ayrıca paketləşdirilməlidir.

# Maliyyə və kreditlər

**Xüsusi kredit xətti və dövlət zəmanət mexanizmi**

- Azspecial kredit xətti (ya dövlət bankı ilə) — uzunmüddətli (5–10 il), aşağı faizli kreditlər və ya faiz subsidiya proqramı
- Qeyd: kredit şərtləri (zəmanət, ilkin ödəniş) KOB-ların vəziyyətinə uyğunlaşdırılmalı; kiçik sahibkarlara collateral tələbini azaltmaq üçün dövlət zəmanəti fondu

**Qrantlar və startap dəstəyi**

- İnnovativ və yerli məşğulluq yaradan layihələr üçün start qrantları
- Xüsusi "recovery" qrantları (infrastrukturun bərpası, emal, kənd təsərrüfatı reabilitasiyası)

**Mikrofinans və güzəştli leasing**

- Kiçik arıq/fermer və xidmət sahibkarları üçün mikrocredit və avadanlıq leasingi (az ilkin ödəniş) xidmətlərinin yaradılması nəzərə alına bilər.

# Vergi, gömrük və xüsusi iqtisadi zonalar

**Xüsusi İqtisadi Zonalar (XİZ) — model paket**

- Cəbrayıl Biznes Parkı tipli XİZ: vergidə güzəştlər (3–7 il), idxal vergisi azadlığı, sadələşdirilmiş inzibati prosedurlar, tələbi əsas götürən infrastruktura prioritet sərmayə
- XİZ daxilində inkubasiya mərkəzləri, gömrük-asanlaşdırma (one-stop customs) və logistika hubu

**Gömrük və ixrac təşviqi**

- İxrac edən KOB-lar üçün geri qaytarılan vergi və ya ixrac subsidiya mexanizmləri
- Malların nəqli üçün xüsusi sürətləndirilmiş gömrük prosedurları yaradıla və tətbiq oluna bilər.

# Logistika, təhlükəsizlik və mədən təmizlənməsi

**Demininq (minalardan təmizləmə) və təhlükəsizlik planı**

- Sahibkarların və qayıdan əhalinin təhlükəsizliyini təmin etmək üçün məxsusi koordinasiya: INGO/dövlət/ordu ilə dəqiq xəritələmə və sertifikatlaşdırılmış minalardan təmizləmə planı yaradılması
- Demininq nəticələrinin sahibkarlara açıq elan edilməsi

**Logistika paketləri və paylama mərkəzləri**

- Regional logistika mərkəzlərinin (cold chain da daxil olmaqla) yaradılması; yüklərin tranzit xərcinin azaldılması üçün dövlət subsidiyalarının tətbiqi nəzərə alına bilər.

# Rəqəmsal infrastruktur və ödəniş sistemləri

**Rəqəmsal ödəniş infrastrukturu**

- Bank olmayan ödəniş provayderləri ilə əməkdaşlıq; POS və mobil ödəniş terminallarının subsidiyalı təminatı
- Rayonlarda internet/4G/5G bağlantısının gücləndirilməsinə dövlət-özəl PPP proqramları

**Elektron dövlət və bir pəncərə xidməti**

- Lisenziya, qeydiyyat, vergi ödəmələri üçün "one-stop" elektron portal (yerli dildə, sadələşdirilmiş formalar) yaradılması diqqətə alına bilər.

# Təlim, mentorluq və KOB ekosistemi

**İşgüzar təlim və sertifikasiya proqramları**

- Biznes idarəçiliyi, rəqəmsal marketinq, maliyyə planlaşdırma, keyfiyyətə nəzarət, ixrac tələbləri üzrə qısa kurslar (təlimlər dövlət, özəl sektor və donor təşkilatlarla)
- Sektor yönümlü (arıçılıq, turizm, kənd təsərrüfatı, tekstil) praktiki təlim-laboratoriyalar

**İnkubatorlar və mentor şəbəkəsi**

- XİZ və regional biznes mərkəzlərində inkubasiya, accelerator proqramları və mentorluq. İlk biznes planlar üçün "proof-of-concept" qrantları

**Peşəkar birliklər və klasterlər**

- Arıçılıq, turizm, qida emalı və xidmət klasterlərinin formalaşdırılması — ortaq tədarük, marketinq və ixrac koordinasiyasının təşkili sahibkarlara doğru strategiya qurmaqda kömək edəcəkdir.

# Marketinq, brendinq və ixrac dəstəyi

**Region brendinq strategiyası**

- “Qarabağ məhsulları” kimi brend qurmaq, keyfiyyət sertifikatları, geosiyasi müəllif hüququ (PGI/PO /coğrafi göstəricilər) üçün dəstək
- Turizm üçün imic kampaniyaları, regionun təhlükəsizliyini və infrastrukturunu vurğulayan materiallarla məhsulların hazırlanması ilə bağlı təlimlər

**Ticarət missiyaları və sərgilər**

- Dövlət/ODA dəstəyi ilə ixrac missiyaları, beynəlxalq sərgilərdə region məhsullarının nümayişi sahibkarları xarici bazarlara çıxmağa təşviq edəcəkdir.

# Keyfiyyət, Sertifikat və Hüquqi Tənzimləmə

**Sertifikatlaşdırma və standartlaşdırma dəstəyi**

- KOB-lara CE/ISO/əmtəə keyfiyyəti və qida təhlükəsizliyi üçün subsidiyalı sertifikatlaşdırma proqramları yaradılması
- Sertifikat mərkəzlərinin XİZ və ya regional mərkəzlərdə fəaliyyətə başlaması

**Hüquqi sabitlik və investisiya müdafiəsi**

- Sahibkarların hüquqlarını qoruyan qanunvericilik: investisiya müqavilələrinin sabitliyi, xarici sərmayə üçün məhkəmə mühafizəsi, arbitraj mexanizmlərinə diqqət yetirilməsi məqsədəuyğun olardı.

# İdarəetmə və Koordinasiya Mexanizmləri

**Regional KOB Koordinasiya Mərkəzi**

- Dövlət, banklar, donorlar və yerli icra hakimiyyəti təmsilçilərindən ibarət “One-Stop Support Office” — sahibkarlara bütün xidmətlərin verilməsi (icazə, kredit, texniki yardım, torpaq məsələləri) mərkəzi yaradıla bilər
- Mərkəzin eyni zamanda monitorinq və M&E (effektivliyin qiymətləndirilməsi) funksiyasını yerinə yetirməsi də məqsədəuyğun olardı.

**Şəffaf məlumat bankı**

- Mövcud obyektlər, icarə statusu, dayaq proqramları, deminq-situation və infrastruktur planları barədə açıq məlumat portalı yaradılması sahibkarlara qaranlıq qalan məqamlarda dəstək olacaqdır.

# Prioritet icra planı

- **Fövqəladə (0–6 ay):** One-Stop Support Office yaradılması, standart icarə müqavilələri, demininq prioritetləşdirilməsi, müvəqqəti kommunal dəstək (generator, su anbarı) yaradılması
- **Qısa müddətli (6–24 ay):** Xüsusi kredit xətti, start qrantları, təlim proqramlarının işə salınması, regional logistika mərkəzlərinin planlaşdırılması
- **Orta müddətli (2–5 il):** XİZ-lərin (məs. Cəbrayıl Biznes Parkı) bünövrə investisiyası, vergi/iqtisadi güzəştlərin tətbiqi, brendinq və ixrac təşviqi
- **Uzunmüddətli (5+ il):** Dayanıqlı məskunlaşma, tam inteqrasiya olunmuş regional iqtisadiyyat, qlobal bazarlara ixracın möhkəmlənməsi sahibkarlara böyük dəstək olardı.

# Qısa Xülasə

- Dövlət + donor bank + kommersiya bankları ilə **xüsusi kredit və zəmanət fondu** qurulması
- **Standart icarə müqaviləsi** və icarə haqqı monitorinqi tətbiq edilməsi
- **Elektrik və kommunal xərclərinə güzəştlər** ilk illər üçün tətbiq edilsin; alternativ enerji layihələri dəstəklənməsi
- **Rəqəmsal ödəniş infrastrukturu** və "one-stop" elektron xidmətlər verilməsi
- **Təlim, inkubasiya, sertifikatlaşdırma** proqramları ilə KOB-ların bacarıqları artırılması
- **Logistika və demininq** üzrə prioritet resurslar ayrılması
- **Xüsusi İqtisadi Zona (Cəbrayıl və s.)** modeli işə salınması: vergi və gömrük güzəştləri, infrastruktura sərmayə yaradılması məqsədəuyğundur.

TƏŞƏKKÜRLƏR!